**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*əlyazması hüququnda*

**ŞƏRQİYYƏ ADİLXAN QIZI XƏLİLOVA**

# HÜQUQİ YARDIM ALMAQ HÜQUQU: BEYNƏLXALQ STANDARTLAR VƏ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİ

**İXTİSAS: 5603.01 - "Beynəlxalq hüquq; insan hüquqları"**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2016**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasında yerinə yetirilmiş, geniş müzakirə olunaraq əsas müdafiəyə tövsiyə edilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbərlər:** | **hüquq üzrə elmlər doktoru A.A.MƏHƏRRƏMOV**<br>**hüquq üzrə fəlsəfə doktoru, dosent Ş.İ.ƏLİYEV** |
| **Rəsmi opponentlər:** | **hüquq üzrə elmlər doktoru, professor O.F.ƏFƏNDİYEV**<br>**hüquq üzrə elmlər doktoru Ə.C.SEYİDOV** |
| **Aparıcı təşkilat:** | **AMEA İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu** |

Dissertasiya işinin müdafiəsi "_29___" "_03___" 2016-cı il tarixdə saat "______" Bakı Dövlət Universitetinin nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, Bakı Dövlət Universiteti, I tədris binası, 002 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" "_____________" 2016-cı il tarixdə göndərilmişdir.

**FD.02.103 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru: Ə.Q.MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Dissertasiya işinin aktuallığı**. Hər bir hüquqi dövlətin əsas məqsədi insan və vətəndaş hüquqlarını və azadlıqlarını təmin etməkdir. Bu məqsəd Azərbaycan Respublikasının (AR) Konstitusiyasında (m.12) təsbit olunur. Lakin müvafiq hüquqi təminat mexanizmi olmadan insan hüquq və azadlıqlarının Konstitusiyada təsbit edilməsi əhəmiyyətsizdir. Məhz bu baxımdan AR Konstitusiyasında insan hüquq və azadlıqlarının hüquqi təminatı da nəzərdə tutulur. Belə ki, Azərbaycan dövləti hər kəsin Konstitusiyada təsbit olunan hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir (m.26). Qeyd olunan müdafiənin hüquqi təminatlarından biri də hüquqi yardım almaq hüququdur. Məhz bu baxımdan hüquqi yardım almaq hüququnun hüquqi mahiyyətini və əhəmiyyətini nəzəri baxımdan araşdırmaq olduqca zəruri və aktualdır.

Beynəlxalq münasibətlərin humanistləşməsi və insan hüquqlarının müdafiəsinin beynəlxalq hüququn fəaliyyət sferasına keçməsi şəraitində insan hüquqlarının müdafiəsinin təmin edilməsi beynəlxalq hüquq normaları olmadan qeyri-mümkündür. Belə bir şəraitdə heç bir dövlət beynəlxalq hüquq normalarının köməyi olmadan insan hüquqlarının səmərəli müdafiəsini təmin edə bilməz. Beynəlxalq hüquq normalarının tənzimetmə sisteminə daxil olması isə insan hüquq və azadlıqlarının səmərəli şəkildə müdafiəsinin beynəlxalq və milli hüququn qarşılıqlı əlaqəsi fonunda həyata keçirilməsini zəruri edir.

Doğrudan da söhbət insan hüquqlarının müdafiəsindən, bu sahədə beynəlxalq əməkdaşlıqdan gedirsə, onda beynəlxalq və dövlətdaxili hüququn, insan hüquqları üzrə beynəlxalq standartların və dövlətlərin daxili səlahiyyətlərinin qarşılıqlı əlaqəsi problemləri ortaya çıxır. Bu problemlərin xarakteri həmişə dinamikdir. Bütövlükdə, dünyada gedən dəyişikliklər, beynəlxalq hüququn və insan hüquqları sahəsində beynəlxalq əməkdaşlığın inkişafı bu problemin həllinə daim geniş sistemli yeniliklər gətirir[1].

İnsan hüquqlarının müdafiəsinə və onun təmin edilməsinə aid beynəlxalq hüquq normalarının mövcud olması və onların milli qanunvericiliklə eyni tənzimetmə predmetinə malik olması, qeyd olunan qarşılıqlı əlaqənin milli qanunvericiliyin beynəlxalq hüquq normalarına uyğunlaşdırılması istiqamətində baş verməsini şərtləndirir. Bu baxımdan insan hüquqlarının müdafiəsinə dair beynəlxalq hüquq normalarının AR qanunvericiliyinin təkmilləşdirilməsinə təsir etməsi və insan hüquq və azadlıqlarının hüquqi təminatı kimi hüquqi yardım almaq hüququnun realizəsində beynəlxalq-hüquqi standartların nəzərə alınması zəruridir.

[1] Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı, 2013, s. 4.



AR-də insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində 2011-ci il tarixli Milli Fəaliyyət Proqramında qeyd edilir ki, qanun layihələrinin hazırlanması zamanı AR Konstitusiyasında və AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş insan hüquq və azadlıqlarının əsas meyar kimi rəhbər tutulması zəruridir (b,1.1). Əslində bu tələb AR qanunvericiliyində Konstitusiya səviyyəsində müəyyən edilir. Belə ki, AR Konstitusiyasının 12-ci maddəsinə müvafiq olaraq, Konstitusiyada təsbit edilmiş insan hüquq və azadlıqları AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilməlidir. Nəticə etibarı ilə AR-in, milli qanunvericiliyini beynəlxalq hüquq, xüsusilə müqavilə normalarına uyğunlaşdırması, onun həmin müqavilə üzrə öhdəsinə götürdüyü öhdəliyi yerinə yetirməsini ehtiva edir və bu *pacta sunt servanda* prinsipinin məzmunundan irəli gəlir.

Bu baxımdan insan hüquqlarının müdafiəsinin hüquqi təminatı kimi hüquqi yardım almaq hüququ nümunəsində beynəlxalq hüquq normaları ilə AR qanunvericiliyinin qarşılıqlı əlaqəsinin tədqiq edilməsi həm nəzəri, həm də təcrübi baxımdan aktuallıq kəsb edir.

İnsan hüquqlarının müdafiəsi sferasında dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət edən 2006-cı il tarixli "AR-də insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı”nda insan hüquqlarının təmini baxımından dövlət orqanlarının fəaliyyətinin, o cümlədən normativ hüquqi aktların təkmilləşdirilməsi, AR-də vəkillik institutunun gücləndirilməsi, fəaliyyətinin səmərəliliyinin artırılması və müstəqilliyinin təmin edilməsi, habelə əhalinin hüquqi yardım almaq imkanının təmin edilməsi məqsədilə bölgələrdə peşəkar vəkillərin sayının artırılması, eləcə də əhalinin hüquqi yardım almaq hüququndan daha səmərəli istifadə etməsinə kömək etmək məqsədilə ali təhsil müəssisələrinin hüquq fakültələri nəzdində «Hüquq Klinikalarının» yaradılması və fəaliyyətlərinə kömək göstərilməsi nəzərdə tutulur.

AR-də vəkillik institutunun gücləndirilməsi və əhalinin hüquqi yardım almaq imkanının təmin edilməsi AR-də insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində 2011-ci il tarixli Milli Fəaliyyət Proqramında da nəzərdə tutulur.

Mövzunun aktuallığını əsaslandıran amillərdən biri də müasir hüquq praktikası və vətəndaş cəmiyyətinin inkişafıdır. Belə ki, hüquqi yardım almaq hüququndan istifadə edilməsi cəmiyyətdə mövcud olan iqtisadi,

sosial, hüquqi tələblərlə müəyyən edilir. Hüquqi yardım almaq hüququnun əsas məqsədi hüquqi yardıma ehtiyacı olan şəxslərə qanunla ona verilən hüquqların çatdırılması və ya həmin hüquqlardan istifadəyə şərait yaradılmasıdır. Aydındır ki, hər kəs peşəkar hüquqşünas deyil və öz hüquqlarını bilməyə bilər, lakin müəyyən məqamlarda həmin hüquqları bilmək və onlardan istifadə etmək zərurəti meydana çıxır. Digər tərəfdən, insanların hamısı, həm maddi (ödənişli olması), həm də qeyri-maddi (savadsızlıq, maarifləndirmə və s.) xarakterli müxtəlif səbəblərdən, qanunla onlara verilən hüquqlardan istifadə edə bilmir. Həmin hüquq və azadlıqlardan istifadə, bəzən də vəzifələrə riayət etmək üçün dövlət öz vətəndaşlarına kömək göstərməlidir və ya həmin hüquqların realizəsi üçün şərait yaratmalıdır.

Prosessual məzmuna malik olan hüquqi yardım almaq hüququnun ictimai əhəmiyyəti ondan ibarətdir ki, o, öz mahiyyətinə görə insan və vətəndaşların hüquq və azadlıqlarının həyata keçirilməsinin vacib təminatıdır. Bu hüququn funksiyalarından biri olan preventiv funksiya nəinki şəxsin öz hüquq və azadlıqlarının qanunauyğun həyata keçirilməsinə kömək edir, həmçinin dövlət hakimiyyəti orqanlarının və onların vəzifəli şəxslərinin insan və vətəndaş hüquq və azadlıqlarının qeyri-qanuni məhdudlaşdırılmasına yönəldilmiş hərəkətlərinin qarşısının alınmasına zəmanət verir.

Hüquqi yardım almaq hüququnun realizəsi üzrə bəzi məsələlərə məhz məhkəmə təcrübəsində aydınlıq gətirilir. Bu baxımdan Avropa İnsan Hüquqları Məhkəməsinin (bundan sonra Avropa Məhkəməsi) presedent təcrübəsi xüsusi maraq kəsb edir. Bütövlükdə Avropa Məhkəməsinin presedentlərində hüquqi yardımla bağlı verilən şərhlər Avropa Şurasına üzv-dövlətlərdə, o cümlədən AR-də bu hüququn realizəsində mühüm əhəmiyyət kəsb edir. Qeyd olunan əhəmiyyətin müəyyən edilməsi baxımından Avropa Məhkəməsinin presedent təcrübəsinin öyrənilməsi də nəzəri və təcrübi baxımdan aktuallıq kəsb edir.

Mövzunun aktuallığını göstərən amillərdən biri də insan hüquqlarının müdafiəsində əhəmiyyətli rol oynayan ödənişsiz hüquqi yardımla bağlıdır. Bu növ hüquqi yardımın geniş şəkildə tətbiqi üçün xüsusi dövlət proqramları, ayrıca institusional təsisat və normativ-hüquqi baza olmalıdır. Qeyd edilənlərin birbaşa tətbiqi, əlbəttə ki, lazımi effekti verə bilməz, bunun üçün maddi, texniki, mənəvi dəyərlər, eyni zamanda real imkanlar nəzərə alınmalıdır. Bütün bu məsələlərin həlli üçün kompleks elmi araşdırmanın aparılmasına zərurət var.

Nəhayət, mövzuya olan marağı göstərən amillərdən biri də odur ki, hüquqi yardım almaq hüququ cəmiyyətdə nə qədər çox tətbiq edilsə, nə qədər çox istifadə edilsə, həmin cəmiyyətin hüquq düşüncəsində, insanların



özünü hüquqi cəhətdən müdafiə qabiliyyətində, eyni zamanda göstərilən hüquqi xidmətin peşəkarlıq səviyyəsində müsbətə doğru ciddi irəliləyişlər əldə etmək olar. Bu səbəbdən hesab edirik ki, demokratik, hüquqi dövlət quruculuğu yolunu seçmiş AR-də bu universal hüququn imkanlarından geniş istifadə üçün zəruri elmi-nəzəri baza yaradılmalıdır.

**Tədqiqat işinin obyektini** hüquqi yardım almaq hüququnu təsbit edən beynəlxalq hüquqi standartlar ilə AR qanunvericiliyinin qarşılıqlı əlaqəsi, **predmetini** isə hüquqi yardım almaq hüququ sferasında beynəlxalq hüquq normalarının AR-in hüquq sistemində realizəsi ilə bağlı hüquqi məsələlər təşkil edir.

**Tədqiqat işinin məqsədi** insan hüquqlarının müdafiəsinin təmin edilməsi istiqamətində hüquqi yardım almaq hüququnun əhəmiyyətini müəyyən etmək, bu sferada beynəlxalq hüquq normalarının AR qanunvericiliyi ilə qarşılıqlı əlaqəsinin, həmçinin hüquqi yardım almaq hüququnun realizəsinin nəzəri əsaslarını formalaşdırmaqdır. Qeyd edilən məqsədə nail olunması istiqamətində **aşağıdakı vəzifələr** müəyyən edilmişdir:

- Hüquqi yardım almaq hüququnun və onun əsasında dayanan hüquqi yardımın formalaşması və inkişaf tarixini analiz etmək;
- Hüquqi yardım almaq hüququnun anlayışı və hüquqi məzmununu müəyyən etmək;
- Hüquqi yardım almaq hüququnun hüquqi təbiətini, növlərini və subyektlərini müəyyənləşdirmək;
- Kompleks xarakterli hüquqi yardım almaq hüququnun insan hüquqları sistemində yerini aydınlaşdırmaq;
- Beynəlxalq və dövlətdaxili hüquqda hüquqi yardım almaq hüququnun realizəsinin xüsusiyyətlərini araşdırmaq;
- Hüquqi yardım almaq hüququnun beynəlxalq hüquqi əsaslarını təhlil etmək;
- Avropa Məhkəməsinin presedentləri nümunəsində hüquqi yardım almaq hüququna dair beynəlxalq hüquq normalarının realizəsi üzrə beynəlxalq məhkəmə təcrübəsini öyrənmək;
- Hüquqi yardım almaq hüququnun dövlətdaxili realizəsinin xüsusiyyətlərinin müəyyən edilməsi istiqamətində inkişaf etmiş dövlətlərin qanunvericiliyini müqayisəli təhlil etmək;
- AR-də hüquqi yardımla bağlı beynəlxalq hüquq normalarının madi-hüquqi implementasiyasının xüsusiyyətlərini araşdırmaq;
- Hüquqi yardımla bağlı AR qanunvericiliyinin inkişaf tendensiyalarını müəyyən etmək;

- AR-də hüquqi yardımla bağlı beynəlxalq hüquq normalarının tətbiq təcrübəsini öyrənmək;

- AR-də hüquqi yardım almaq hüququnun realizəsi xüsusiyyətlərini müəyyən etmək;

- AR-də ödənişsiz hüquqi yardımdan istifadənin nəzəri və praktiki problemlərini araşdırmaq.

**Tədqiqat işinin metodoloji əsasını** dialektikanın kateqoriya və prinsipləri, o cümlədən hüquq elmində hamılıqla qəbul olunan ümumnəzəri və xüsusi elmi metodlar təşkil edir. Dissertasiya işi nəzəriyyə və praktikanın qarşılıqlı əlaqəsini, tədqiqatın predmetini, məzmun və forması əks etdirən dialektik metodlara əsaslanır. Tədqiqat işində ümumi və xüsusi elmi-tədqiqat metodları: tarixi-hüquqi, müqayisəli-hüquqi, formal-məntiqi, sistem, konkret-sosioloji, statistik metodlardan istifadə edilmişdir.

**Tədqiqat işinin nəzəri əsasları.** Dissertasiya işində beynəlxalq hüquq, insan hüquqları, hüquqi yardım sferasında tədqiqat aparan bir çox hüquqşünas alimlərin: A.Q.Kuçerena, A.H.Chroust, C.H.Mövsümov, D.Gomien, D.J. Harris, E.A.Lukaşeva, E.K.Tarbaqayeva, E.S.Lyubovenko, Ə.İ.Əliyev, Ə.İ.Sadıqov, F.M. Abbasova, İ.B.Mixaylovskaya, İ.S.Yatsenko, J.Giddings, J.Gordley, J.Robert Bonner, John S. Bradway, L.H.Hüseynov, L.Zwaak, M.A.Mövsümov, M.Y.Barşevskiy, M.Cappelletti, M.Nowak, M.Gregory Bovey, M.Panickar, M.Robertson, N.Q.Yeliseyev, Peter H.M.Soar, P.Q.Melniçenko, S.Rice, Ş.İ.Əliyev, T.Lindholm, V.İ.Kaçalov, V.L.Kudryavtsev, V.M.Çxikvadze, V.V.Konin, Y.M.Lyubşev və başqalarının əsərlərindən istifadə edilmişdir.

**Tədqiqat işinin normativ bazasını** insan hüquqları sferasında qəbul edilmiş beynəlxalq müqavilələr, hüquqi yardımla bağlı beynəlxalq təşkilatların qərarları, hüquqi yardımla bağlı xarici dövlətlərin və AR-in qanunvericilik aktları təşkil edir. Belə ki, tədqiqat işində AR-in Mülki-Prosessual Məcəlləsi, Cinayət-Prosessual Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunu, "Notariat haqqında" Qanunu, "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunu, "Sosial xidmət haqqında" Qanunu və s. normativ aktları təhlil edilmişdir. Tədqiqat işində eyni zamanda İnsan Hüquqları Komitəsinin qərarlarından və Avropa Məhkəməsinin presedent təcrübəsindən də geniş istifadə edilir.

**Tədqiqat işinin elmi yeniliyi** onunla əsaslandırıla bilər ki, hüquqi yardım almaq hüququ sferasında beynəlxalq hüquq normalarının milli hüquq sistemində realizəsi məsələləri Azərbaycanın hüquq doktrinasında kompleks tədqiqat predmeti olmamışdır. Eyni zamanda, dissertasiya işi hüquqi yardımın realizəsi üzrə zəngin təcrübəyə malik dövlətlərin təcrübəsi



öyrənilməklə bu sahədə mövcud olan problemlərin həlli yollarının müəyyən edilməsi istiqamətində yeni yanaşmanı özündə ehtiva edir.

Tədqiqat işinin elmi yeniliyini özündə ifadə edən aşağıdakı **yeni elmi müddəalar** müdafiəyə təqdim olunur:

1. Hüquqi yardım almaq hüququnun əsas tərkib elementi sayılan "hüquqi yardım" kateqoriyası mühüm əhəmiyyət kəsb edir. Hüquqi yardım, hüquqi anlayış olaraq özündə, şəxslərin hüquqlarının müdafiəsi və pozulmuş hüquqlarının bərpası məqsədilə hüquqi maarifləndirmə və hüquqi informasiya da daxil olmaqla, onlara bir qayda olaraq ixtisaslı nümayəndələrin ödənişli və ödənişsiz formada həyata keçirdiyi hüquqi məsləhətin verilməsini və digər hüquqi köməyin göstərilməsini ehtiva edir.

2. Obyektiv mənada hüquqi yardım almaq hüququ kompleks xarakterli hüquq institutudur. Bir tərəfdən, bu institut müxtəlif formalarda yaradılan beynəlxalq və dövlətdaxili hüquq normalarını özündə birləşdirir, digər tərəfdən, bu institutu formalaşdıran hüquq normaları hüququn müxtəlif sahələrinə (konstitusiya, cinayət-prosessual, mülki-prosessual, inzibati-prosessual və s.) aiddir.

3. Hüquqi yardım almaq hüququnun məzmunu, şəxsin öz qanuni maraqlarını və tələblərini müdafiə etmək məqsədilə hüquqi yardım almaqda ifadə olunan subyektiv imkandan və buna müvafiq olaraq qeyd olunan imkanın həyata keçirilməsinin təmin edilməsi üzrə dövlətin hüquqi vəzifəsindən ibarətdir. Dövlətin bu vəzifəsinə həmin hüququn realizəsi üçün müvafiq təminat mexanizmini yaratması aiddir. Bu mexanizm müxtəlif istiqamətli hüquqi və təşkilati xarakterli tədbirləri: qanunvericilik bazasının müəyyən edilməsi, müvafiq orqanların yaradılması və müəyyən edilməsi, hüquqi yardım göstərilməsi üçün ixtisaslı kadrların hazırlanması üçün şəraitin yaradılması, ədalət mühakiməsinin həyata keçirilməsinin təmin edilməsi və s. özündə birləşdirir.

4. Hüquqi yardım almaq hüququ mütləq (yəni məhdudlaşdırılmayan) xarakterli, beynəlxalq və milli hüquqi əsaslara malik olan və realizəsi dövlətin öhdəliyi olan konstitusion hüquqdur. Hüquqi yardım almaq hüququnun realizəsi dövlətin ilk növbədə, beynəlxalq öhdəliyidir. Bu mənada dövlətlərin hüquqi yardımla təmin etmək üzrə əsas öhdəliyini məhz beynəlxalq insan hüquqları kontekstində nəzərdən keçirmək lazımdır. Konstitusion səviyyədə beynəlxalq hüquq normalarının realizəsi nəinki dövlətdaxili realizənin əsas göstəricisidir, həmçinin dövlətin öz beynəlxalq öhdəliklərinə riayət etməsinin bariz nümunəsidir. Respublikamızın əsas qanununda insan hüquq və azadlıqlarına geniş yer ayrılması, həm beynəlxalq hüququn əsas

normativ-hüquqi realizəsi, həm də dövlətimizin beynəlxalq öhdəliklərinə riayət etməsini ən yüksək, ali qanun səviyyəsində təsbit etməsidir.

5. Hüquqi yardım almaq hüququ ümumhüquqi məzmuna malikdir. Birincisi, hüquqi yardım almaq hüquqi ümumi xarakterli (konstitusiya-hüquqi), yəni dövlət və şəxslər arasında yaranan münasibətlərdə realizə olunur. İkincisi, hüquqi yardım almaq bir qayda olaraq şəxsi hüquq və azadlıqların prosessual təminatlarını ehtiva etməklə özündə hüquq və maraqların müdafiəsində ifadə olunan prosessual-hüquqi cəhətləri birləşdirir. Bu baxımdan hüquqi yardım almaq hüququ Konstitusiyada təsbit olunmuş digər prosessual xarakterli hüquqlarla (qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını müdafiə etmək hüququ, məhkəmə müdafiəsi hüququ) qarşılıqlı əlaqədədir və onların həyata keçirilməsini təmin edir.

6. Hüquqi yardım almaq hüququ Konstitusiyada təsbit olunan insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi mexanizminin əsas ünsürü qismində çıxış edir. Hər kəsin hüquqi yardım almaq hüququnun ictimai əhəmiyyəti ondan ibarətdir ki, bu hüquq öz mahiyyətinə görə insan və vətəndaşların hüquq və azadlıqlarının həyata keçirilməsinin vacib təminatıdır. Bu hüququn funksiyalarından biri olan preventiv funksiya nəinki şəxsin öz hüquq və azadlıqlarının qanunauyğun həyata keçirilməsinə kömək edir, həmçinin dövlət hakimiyyəti orqanlarının və onların vəzifəli şəxslərinin insan və vətəndaş hüquq və azadlıqlarının qeyri-qanuni məhdudlaşdırılmasına yönəldilmiş hərəkətlərinin qarşısının alınmasına zəmanət verir. Digər tərəfdən, yaşamaq hüququ, azadlıq hüququ, şəxsi toxunulmazlıq və s. kimi hüquqların realizəsi və müdafiəsi hüquqi yardım almaq hüququ olmadan mümkün deyildir. Çünki, hüquqi yardım almaq hüququ şəxsə sadaladığımız hüquqların hansı səviyyədə verilməsini müəyyənləşdirməyə imkan verir. Bundan başqa, hüquqi yardım olmadan sadalanan hüquqlarının müdafiəsini həyata keçirmək də mümkün olmur.

7. Hüquqi yardım almaq hüququ ədalət mühakiməsinin zəruri şərtidir. Belə ki, şəxsin özünü müdafiə etməsi müdafiəçi olmadan ədalətlilik prinsipinə birbaşa ziddir. Bunun davamı olaraq ədalət mühakiməsinin əsas ünsürlərindən biri kimi, müdafiəçinin köməyindən istifadə etmək hüququnun başlıca məqsədi, proses iştirakçısı qismində çıxış edən şübhəli və ya təqsirləndirilən şəxsi, zərərçəkmişi müdafiəçi ilə təmin etməklə mühakimə prosesində tərəflərin real (həqiqi) bərabərliyinə zəmanət verməkdir.

8. Hüquqi yardım almaq hüququnun realizəsinin təmin edilməsi, beynəlxalq və dövlətdaxili mexanizmlərin qarşılıqlı əlaqəsini şərtləndirir. Maddi-hüquqi cəhətdən bu əlaqə hüquqi yardımla bağlı beynəlxalq standartların dövlətdaxili qanunvericiliyə daxil edilməsində ifadə olunursa,



prosessual-hüquqi baxımdan bu qarşılıqlı əlaqə hüquqların müdafiəsi üzrə beynəlxalq orqanların imkanlarından istifadə olunması istiqamətində milli mexanizmlərlə bu orqanların fəaliyyətinin əlaqələndirilməsində ifadə olunur. Bu baxımdan hüquqi yardım almaq hüququnun məhkəmə təminatı ilə bağlı dövlətdaxili praktikanın inkişaf etdirilməsinə xüsusi önəm verilməsi məqsədəmüvafiq hesab olunur. Şübhəsiz ki, bu sahədə beynəlxalq məhkəmə qurumlarının, xüsusilə, Avropa Məhkəməsinin təcrübəsinin öyrənilməsi və istifadəsi mühüm əhəmiyyət kəsb edir.

9. Hüquqi yardım almaq hüququ ilə bağlı beynəlxalq hüquq normalarının milli hüquq sistemində implementasiyası müvafiq olaraq dövlətdaxili qanunvericiliyin daha da təkmilləşdirilməsini zəruri edir. AR Konstitusiyasının 61-ci maddəsinin səmərəli təmin edilməsi və AR-də aztəminatlı ailələr üçün mülki mühakimə icraatı zamanı məhkəməyəqədər və məhkəmə prosesi ərzində ödənişsiz hüquqi yardım göstərilməsi mexanizminin formalaşdırılması məqsədilə "Ödənişsiz hüquqi yardım haqqında" qanun layihəsinin işlənib hazırlanması mühüm hüquqi əhəmiyyət kəsb edir. *De lege lata* bu məqsədə nail olunması istiqamətində "Hüquq klinikalarının" fəaliyyətindən səmərəli istifadə olunması mövcud boşluqların aradan qaldırılmsında əhəmiyyətli olardı.

10. Dövlətlərin uzunmüddətli praktikası nəticəsində formalaşmış hüquqi yardım sistemləri XX əsrdən etibarən, başqa sözlə, beynəlxalq insan hüquqları hüququnun formalaşması ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu mərhələdə hüquqi yardım almaq hüququnun realizəsi iqtisadi, sosial, mədəni və s. amillərlə şərtlənir. Təcrübə göstərir ki, hüquqi yardım almaq hüququnun inkişafında təhsil, maarifləndirmə vacib şərtdir. Hüquqlardan istifadə olunması və ya vəzifələrin yerinə yetirilməsində hüquqi yardıma ehtiyac duyulması bir qayda olaraq savadsızlıqdan, yetərli maarifləndirmənin olmamasından irəli gəlir. Belə ki, təhsil səviyyəsi yüksək olan və ya az da olsa hüquqi düşünmə qabiliyyəti olan şəxslərin hüquqi yardımçısı ilk növbədə onların özüdür. Bu baxımdan hüquqi yardımın daha səmərəli həyata keçirilməsi üçün bu sahədə hüquq düşüncəsinin və maarifləndirmə işinin gücləndirilməsi vacibdir.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqat işinin nəzəri əhəmiyyəti ondadır ki, dissertasiya işindən gələcəkdə bu mövzu üzrə aparılacaq tədqiqatlarda nəzəri baza kimi istifadə edilə bilər. Eyni zamanda dissertasiya işinin nəticələri insan hüquqları, konstitusiya hüququ, cinayət-prosessual hüquq, mülki-prosessual hüquq, inzibati-prosessual hüquq və vəkillik hüququ üçün xüsusi maraq kəsb edir və həmin fənlərin tədrisində istifadə oluna bilər.

Tədqiqat işinin praktiki əhəmiyyəti ondadır ki, tədqiqat işində əldə olunan nəticələrdən və təklif olunan tövsiyələrdən hüquqi yardımla bağlı qanunvericiliyin təkmilləşdirilməsində, xüsusilə ödənişsiz yardımla bağlı qanun layihəsinin hazırlanması və qəbulunda, o cümlədən hüquqi yardımla bağlı məhkəmə təcrübəsində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasında yerinə yetirilmiş, geniş müzakirə olunaraq əsas müdafiəyə tövsiyə edilmişdir. Tədqiqat işinin əsas müddəaları müəllifin dissertasiyanın mövzusu üzrə AR, Ukrayna Respublikası və Moldovanın nüfuzlu elmi jurnallarında müxtəlif dillərdə (azərbaycan və rus) dərc etdirdiyi elmi əsərlərdə, o cümlədən beynəlxalq elmi konfransın materiallarında öz əksini tapmışdır.

**Tədqiqat işinin strukturu** giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Tədqiqat işinin giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, onun metodoloji və nəzəri əsasları müəyyənləşdirilir, işin elmi yeniliyi, müdafiəyə təqdim edilən yeni elmi müddəaları və praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və tədqiqatın strukturu haqqında məlumat verilir.

Birinci fəsil **"Hüquqi yardım almaq hüququnun formalaşması, məzmunu və insan hüquqları sistemində yeri"** adlanır və üç paraqrafdan ibarətdir.

**Birinci paraqrafda** hüquqi yardım almaq hüququnun formalaşması tarixi ilə bağlı məsələlər tədqiq edilir. Qeyd olunur ki, hüquqi yardım almaq hüququnun formalaşmasının qədim tarixi kökləri vardır və bu hüquqi institutun formalaşması müxtəlif ölkələrdə özünəməxsus formada baş vermişdir. Dövlət və hüquq tarixinə həsr olunmuş tarixi sənədlərin və elmi işlərin təhlili göstərir ki, hüquqi yardım vəkillik fəaliyyəti ilə demək olar ki, paralel şəkildə inkişaf etmişdir.

Qədim Afinada ilk zamanlarda vətəndaş cəmiyyətinin səlahiyyətində olan hüquqi yardım sonralar xüsusi şəxslər tərəfindən həyata keçirilməyə başladı. Belə ki, vəkillik peşəsi ilk olaraq Qədim Romada yaranmışdır. Bu dövrdə mülki işlərə baxılması zamanı hüquqi yardım nümayəndəlik formasında həyata keçirilirdi.



Erkən orta əsrlərdə hüquqi yardım göstərilməsi ilə əsasən din xadimləri məşğul idi. Orta əsrlər dövründə hüquqi yardım institutu ilə bağlı iki xarakterik xüsusiyyət formalaşmışdı. Birincisi, artıq məhkəmələr tərəfindən hüquq müdafiəçiləri üzərində nəzarət və onların fəaliyyətini yoxlama prosesi həyata keçirilirdi. İkincisi isə, ictimaiyyət arasında artıq belə bir təsəvvür formalaşmışdır ki, vəkil dövlətin təyinatı ilə ədalət mühakiməsinin maraqları naminə fəaliyyət göstərən kiçik məhkəmə məmurudur.

XIX əsrdən başlayaraq hüquqi yardım fəaliyyəti ilə peşəkarcasına həm vəkillər, həm də nümayəndələr məşğul idi. Bu dövrdə İngiltərədə istifadə olunan *privacy* termini hüquqi yardım almaq hüququnu da özündə ehtiva edirdi. 1789-cu ildə ABŞ Konstitusiyasına edilən dəyişikliklə hüquqi yardım almaq hüququ ilk dəfə konstitusiya səviyyəsində təsbit edildi.

XX əsrin əvvəllərində sənayenin və ticarətin intensivləşməsi, sığorta, istehlakçıların hüquqlarının, əmək haqqı kimi sosial hüquqların müdafiəsi məsələlərinin aktuallaşmasını və müvafiq olaraq hüquqi yardımın göstərilməsini və hüquqi yardım almaq hüququnun təkmilləşdirilməsini zəruri etdi[2]. 1966-cı il Paktlarının qəbulundan sonra hüquqi yardımın gös tərilməsində kardinal dəyişikliklər baş verdi. Hüquqi yardım almaq hüququ isə konkret beynəlxalq hüquqi əsaslara malik olmaqla, hüquqi yardımın göstərilməsi dövlətin həm beynəlxalq, həm də milli öhdəliyinə çevrildi.

Qədim tarixi köklərə malik olan Azərbaycanda hüquqi yardım institutunun formalaşması və inkişafı özünəməxsusluğu ilə seçilir. Azərbaycanın qədim quldarlıq dövlətlərində hüququn müxtəlif sahələri, o cümlədən məhkəmə prosesi və mühakimə icraatı ilə bağlı normalar müxtəlif sənədlərdə təsbit olunmuşdur. Qədim Azərbaycanda məhkəmə prosesi açıq çəkişmə xarakteri daşıyırdı. Məhkəmə prosesində həm ittiham, həm də müdafiə tərəfi iştirak edirdi. VII-IX əsrlərdən başlayaraq Azərbaycanda islam dininin yayılması səbəbindən məhkəmə prosesi və hüquqi yardımla bağlı məsələlər şəriət qanunları əsasında icra edilirdi. Səfəvilər dövlətində artıq hüquqi yardımı göstərən şəxslərə qarşı ilkin tələblər irəli sürülməyə başladı. Hüquqi yardımı həyata keçirən şəxs ölkənin qanunlarından anlayışı olan, şəriət qaydalarından hali olanlar arasından seçilirdi. 1864-cü ildə Çar Rusiyasında keçirilən məhkəmə islahatlarından sonra Azərbaycanda andlı müvəkkillərdən ibarət olan müdafiəçi cinayət prosesinin zəruri iştirakçısına çevrildi.

Azərbaycanda hüquqi yardımın inkişafında XX əsr xüsusi mərhələ kimi nəzərdən keçirilməlidir. Sovet hakimiyyətinin ilk dövrlərində AR-in mülki-prosessual qanunvericiliyində çəkişmə prinsipi ilə yanaşı, nümayən-

[2] Regan F. The Transformation of Legal Aid: Comparative and Historical Studies. Oxford University Press, 1999, p. 114.

dəlik institutunun hüquqi tənzimlənməsinə də yer verilmişdir. Həmin dövrün qanunvericiliyinə görə mülki prosesdə ittihamçılar və tərəflərin müdafiəçiləri vəzifəli şəxslər sayılır və dövlətdən məvacib alırdılar. 60-cı illər Azərbaycan SSR-nin prosessual qanunvericiliyində yeniləşmə mərhələsi kimi özünü göstərdi. Çünki bu dövrdə yeni prosessual məcəllələr qəbul olunmaqla yanaşı, həm də əhaliyə hüquqi yardım göstərilməsi və vətəndaşların müdafiə hüququnun təmin olunması ilə bağlı münasibətlərin tənzimlənməsində irəliyə doğru müəyyən addımlar atıldı. Belə ki, yeni Cinayət-Prosessual Məcəlləsinin 56-cı maddəsində müttəhimin müdafiə hüququnun təmin olunması ilə bağlı müddəa təsbit olundu.

AR-də hüquqi yardım almaq hüququnun konstitusiya səviyyəsində təsbit olunması ilk olaraq 1978-ci il Konstitusiyası qəbul edilməklə baş verdi. Belə ki, Konstitusiyanın 170-ci maddəsində müttəhimlərin müdafiə hüququnun təmin olunmasına, 173-cü maddədə isə hüquqi yardım üçün vəkillər kollegiyasının fəaliyyət göstərməsinə və vətəndaşlara pulsuz hüquqi yardım göstərilməsinə dair müddəalar təsbit olunmuşdur.

Hüquqi yardımla bağlı beynəlxalq hüquq normalarına müvafiq qanunvericiliyin formalaşması isə AR-in müstəqilliyinin bərpa edilməsindən sonrakı dövrdə mümkün olmuşdur. Belə ki, 1995-ci il Konstitusiyasında hüquqi yardım almaq hüququ müstəqil hüquq kimi təsbit olunmuşdur.

**İkinci paraqrafda** hüquqi yardım almaq hüququnun mahiyyəti və hüquqi təbiəti ilə bağlı məsələlər tədqiq edilir. Qeyd olunur ki, hüquqi yardım almaq hüququnun əsasını təşkil edən "hüquqi yardım" terminini dövlətlər arasında həyata keçirilən "hüquqi yardım" termini ilə eyniləşdirmək olmaz. Hüquqi yardım almaq daha çox nümayəndəlik və hüquqi kömək göstərilməsi ilə əlaqəlidir. Nümayəndəlik, şəxsin hüquqlarının onun adından, lakin həmin şəxsin əvəzinə həyata keçirilməsini ehtiva edir. Aydındır ki, hər kəs peşəkar hüquqşünas deyil və öz hüquqlarını bilməyə bilər, lakin müəyyən məqamlarda həmin hüquqları bilmək və onlardan istifadə etmək zərurəti meydana çıxır. Digər tərəfdən, insanların hamısı, həm maddi (ödənişli olması), həm də qeyri-maddi (savadsızlıq, maarifləndirmə və s.) xarakterli müxtəlif səbəblərdən, qanunla onlara verilən hüquqlardan istifadə edə bilmir. Həmin hüquq və azadlıqlardan istifadə, bəzən də vəzifələrə riayət etmək üçün dövlət öz vətəndaşlarına kömək göstərməlidir və ya həmin hüquqların realizəsi üçün şərait yaratmalıdır. Bu proses daha çox ödənişsiz hüquqi yardımla daha çox bağlıdır.

Hüquqi yardım almaq hüququnun əsas məqsədi hüquqi yardıma ehtiyacı olan şəxsə qanunla ona verilən hüquqların çatdırılması və ya həmin hüquqlardan istifadəyə şərait yaradılmasıdır. Hüquqi yardımın predmetini



şəxs tərəfindən hüquqi sferada hüquqi xidmətlərin alınması zamanı meydana çıxan hüquq münasibətləri təşkil edir. Öz növbəsində hüquqi xarakterli xidmətlər hüquqi yardımda ifadə olunur.

Hüquqi yardım almaq hüququnun mahiyyət və məzmunu ilə bağlı hüquq ədəbiyyatında mövcud olan yanaşmalar və mövqelər təhlil edilərək müəyyən olunur ki, hüquqi yardım almaq hüququ mütləq (yəni məhdudlaşdırılmayan) xarakterli, beynəlxalq və milli hüquqi əsaslara malik olan və realizəsi dövlətlərin öhdəliyi olan konstitusion hüquqdur. Bu hüquq özünəməxsus xüsusiyyətlərə malikdir: 1) dövlətlə fiziki və hüquqi şəxslər, həmçinin həmin şəxslərin özləri arasında yaranır; 2) ixtisaslı (yüksək keyfiyyətli) hüquqi yardımın göstərilməsini ehtiva edir; 3) nümayəndəlik xarakteri daşıyır; 4) dövlət tərəfindən təmin olunur; 5) ödənişli və ödənişsiz ola bilər; 6) şəxsi hüquqlar kateqoriyasına aiddir; 7) kompleks xarakterə malikdir, yəni bir neçə hüququn (hüquq qanun və məhkəmə qarşısında bərabərlik, ədalətli məhkəmə araşdırması, müraciət etmək hüququ və s.) əlamətlərini özündə birləşdirir.

Qeyd olunan əlamətlərdən də göründüyü kimi, hüquqi yardım ixtisaslı, yüksək keyfiyyətli və peşəkar hüquqşünas tərəfindən göstərilməlidir. AR Konstitusiyasında (m.61) və Vəkillər və vəkillik fəaliyyəti haqqında Qanunda (m.3) təsbit olunan "yüksək keyfiyyətli" ifadəsi iki aspekti özündə ehtiva edir: hüquqi yardımı göstərən şəxsin ixtisaslı olmasını (peşəkarlığı) və hüquqi yardımın özünün keyfiyyətini. Lakin hüquqi yardımı ixtisaslı və peşəkar hüquqşünaslarla yanaşı, peşəkar olmayanlar da göstərə bilər. Bu baxımdan keyfiyyətli və ya ixtisaslı hüquqi yardım hüquqi yardımın tərkibinə daxildir. Amma qanunvericilik yalnız keyfiyyətli hüquqi yardımı ehtiva edir. Göstərilən əlamətlərdən belə nəticəyə gəlmək olar ki, dövlət tərəfindən təmin olunan hüquqi yardımı ixtisaslı və ya peşəkar nümayəndələr – hüquqşünaslar və vəkillər həyata keçirir.

Beləliklə, hüquqi yardım almaq hüququ - bir qayda olaraq ixtisaslı nümayəndələrin ödənişli və ödənişsiz formada həyata keçirdiyi hüquqi xidmətlə bağlı dövlətlə fiziki və hüquqi şəxslər, həmçinin həmin şəxslərin özləri arasında yaranan hüquq münasibətlərində təcəssüm edən, beynəlxalq və milli hüquqi əsaslara malik olan və dövlət tərəfindən təmin olunan şəxsi hüquqlar kateqoriyasına aid kompleks xarakterli konstitusion hüquqdur.

Hüquqi yardım ödənişli və ödənişsiz əsaslarla həyata keçirilir. Vəkilə müraciət edən şəxs onunla müqavilə bağlayır və tərəflər arasındakı pul məsələsi həmin müqavilə əsasında tənzimlənir. Vəkil statusu olmayan nümayəndələr və müraciət edən şəxslər arasındakı ödəniş məsələsi yazılı razılaşma və ya digər yazılı sənəd formasında tənzimlənə bilər.Ödənişsiz

hüquqi yardım isə dövlət büdcəsi hesabına maliyyələşdirilir. Yəni şəxsin maddi vəziyyəti ona vəkil tutmağa imkan vermədikdə, məhkəmə tərəfindən həmin şəxs vəkillə təmin edilə bilər.

Hüquqi yardım almaq hüququ birbaşa və dolayı formada həyata keçirilə bilər. Birbaşa hüquqi yardım formasında hüquq münasibətləri birbaşa olaraq nümayəndə ilə təmsil olunan şəxs arasında yaranır. Dolayı hüquqi yardım formasında isə hüquqi yardım üzrə hüquq münasibəti insan hüquqlarının müdafiəsinin təmin edilməsi istiqamətində dövlətin publik vəzifəsini yerinə yetirməsi ilə bağlı yaranır.

Hüquqi yardım almaq hüququnun subyektləri fiziki və hüquqi şəxslər və dövlətdir. Bu subyektləri hüquqi yardım göstərilən və hüquqi yardımı göstərən olmaqla iki qrupa bölmək olar. Hüquqi yardım göstərilən subyekt hüquqi yardım əldə etmək hüququna malik fiziki və hüquqi şəxslərdir. Subyektiv baxımından bu hüququn subyekti yalnız fərdlərdir, lakin geniş anlamda dövlət orqanları, ictimai təşkilatlar, kommersiya hüquqi şəxslər də bura daxildir. Məsələn, AR Konstitusiyasının 130.4-cü maddəsinə əsasən dövlət orqanları AR Konstitusiya Məhkəməsindən hüquqi yardım ala bilər. Hüquqi yardımı göstərən subyektlərə isə dövlət orqanları, vəkillər, nümayəndələr, hüquqi xidmət mərkəzləri daxildir.

**Üçüncü paraqrafda** hüquqi yardım almaq hüququnun insan hüquqları sistemində yeri və onun digər insan hüquqları ilə qarşılıqlı əlaqəsi müqayisəli tədqiq olunur. Qeyd olunur ki, bu hüququn insan hüquqları sistemində yeri, ilk növbədə onun xüsusiyyətləri ilə müəyyən olunur. Bu xüsusiyyətlərə müvafiq olaraq hüquqi yardım almaq hüququ istənilən növ konstitusion hüquqlar kimi bu və ya digər formada siyasətlə əlaqəli olsa da, onu sırf siyasi hüquq kimi qələmə vermək də düzgün deyil. Belə ki, konkretləşdirici şəxsi hüquqlar qrupuna aid olan hüquqi yardım almaq hüququ, şəxsi hüquq və azadlıqların (yaşamaq, şəxsiyyət azadlığı və s.) prosessual təminatı qismində çıxış edir.

Digər tərəfdən, hüquqi yardım almaq hüququ kompleks xarakter daşıyır, yəni bir sıra hüquqların (hüquq qanun və məhkəmə qarşısında bərabərlik, ədalətli məhkəmə araşdırması, müraciət etmək hüququ və s.) əlamətlərini özündə birləşdirir və həmin hüquqların səmərəli şəkildə realizəsi üçün təminatdır.

Prosessual məzmuna malik olan hüquqi yardım almaq hüququnun ictimai əhəmiyyəti ondan ibarətdir ki, o, öz mahiyyətinə görə insan və vətəndaşların hüquq və azadlıqlarının həyata keçirilməsinin vacib təminatıdır. Bu hüququn funksiyalarından biri olan preventiv funksiya nəinki şəxsin öz hüquq və azadlıqlarının qanunauyğun həyata keçirilməsinə kömək



edir, həmçinin dövlət hakimiyyəti orqanlarının və onların vəzifəli şəxslərinin insan və vətəndaş hüquq və azadlıqlarının qeyri-qanuni məhdudlaşdırılmasına yönəldilmiş hərəkətlərinin qarşısının alınmasına zəmanət verir.

Bu baxımdan hüquqi yardım almaq hüququ beynəlxalq hüquq normalarında və dövlətdaxli qanunvericilikdə nəzərdə tutulan və hansı qrupa aid olmasından asılı olmayaraq demək olar ki, bütün insan hüquqları ilə bu və ya digər formada qarşılıqlı əlaqəyə malikdir.

Qeyd olnduğu kimi bu əlaqə ilk olaraq şəxsi hüquqlar qrupuna aiddir. Belə ki, yaşamaq hüququ, azadlıq hüququ, şəxsi toxunulmazlıq və s. kimi hüquqların realizəsi və müdafiəsi hüquqi yardım almaq hüququ olmadan mümkün deyil. Çünki, hüquqi yardım almaq hüququ şəxsə sadaladığımız hüquqların hansı səviyyədə verilməsini müəyyənləşdirməyə imkan verir. Bundan başqa, hüquqi yardım olmadan sadalanan hüquqlarının müdafiəsini həyata keçirmək də mümkün olmur.

Azadlıq hüququ hüquqi yardım almaq hüququ ilə daha çox əlaqəlidir. Məhz azadlıq hüququnun məhdudlaşdırılması anında hüquqi yardım almaq hüququ zərurəti meydana çıxır. AR Konstitusiyasında hüquqi yardım almaq hüququnu təsbit edən 61-ci maddənin 3-cü bəndi bu fikri təsdiq edir.

Demək olar ki, bütün sosial hüquqların realizəsi üçün hüquqi yardım mütləq şərtdir. Ödənişsiz hüquqi yardım elə özü sosial hüquq hesab edilir, çünki hüquqi yardımın bu növü dövlət tərəfindən əhalinin aztəminatlı hissəsinə kömək göstərilməsi məqsədilə həyata keçirilir.

Hüquqi yardım almaq hüququ iqtisadi və mədəni hüquqlarla da əlaqəlidir. Ölkənin iqtisadi həyatı hüquq normaları ilə nizamlanır, ona görə də həmin normaları bilmək və onlardan vaxtında istifadə etmək mülki dövriyyə iştirakçıları üçün vacibdir. Məhz buna görə, hüquqi yardım almaq hüququ mülkiyyət hüququ, azad sahibkarlıq hüququ kimi hüquqların realizəsində vacib amildir.

Təhsil hüququnun kütləvi şəkildə həyata keçirilməsi ölkənin mədəni və elmi inkişafının vacib şərtidir, xüsusilə də əhalinin hüquq düşüncəsində ciddi dəyişikliklərə yol açan amildir. Bütün növ hüquqlar kimi hüquqi yardım almaq hüququnun da inkişafında təhsil, maarifləndirmə vacib şərtdir. Təhsil səviyyəsi yüksək olan, və ya az da olsa hüquqi düşünmə qabiliyyəti olan şəxsi aldatmaq, inandırmaq, etibarından sui-istifadə etmək çətindir. Bəzən belə şəxslərə hüquqi yardımı elə özləri göstərir.

Hüquqi yardım almaq hüququ yuridik sferanın hüququ olduğundan məhkəmə müdafiəsi, təqsirsizlik prezumpsiyası, tutulanların, həbsə alınanların və cinayət törədilməsində təqsirləndirilən şəxslərin hüquqları, ifadə vermək hüququ ilə birbaşa əlaqəlidir. Başqa sözlə, hüquqi yardım

almaq hüququ ədalət mühakiməsinin zəruri şərtidir. Belə ki, şəxsin özünü müdafiə etməsi müdafiəçi olmadan ədalətlilik prinsipinə birbaşa ziddir.

İkinci fəsil **"Beynəlxalq və dövlətdaxili hüquqda hüquqi yardım almaq hüququnun realizəsinin əsasları"** adlanır və üç paraqrafdan ibarətdir.

**Birinci paraqrafda** hüquqi yardım almaq hüququnun beynəlxalq hüquqi əsasları təhlil edilir. Qeyd olunur ki, bu hüquq ilk beynəlxalq sənəd olaraq İnsan hüquqları haqqında 1948-ci il Bəyannaməsində (m.11.1) ümumi formada təsbit olunsa da, beynəlxalq müqavilə norması kimi ilk dəfə 1966-cı il Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda öz əksini tapmışdır. Paktın 14.3. d. maddəsinə əsasən "hər bir şəxs ona qarşı irəli sürülən istənilən cinayət ittihamına baxılarkən bərabərlik əsasında aşağıdakılarla təmin olunmaq hüququna malikdir: öz iştirakı ilə mühakimə olunmaq və özünü şəxsən və ya öz seçdiyi müdafiəçisi vasitəsilə müdafiə etmək; əgər müdafiəçisi yoxdursa, bu hüququ barədə xəbərdar edilmək və ədalət məhkəməsinin mənafeyi bunu tələb etdiyi istənilən halda onun üçün təyin edilmiş müdafiəçiyə, bu müdafiəçinin haqqını ödəməyə kifayət qədər vəsaiti olmadığı istənilən halda isə pulsuz müdafiəçiyə malik olmaq". Ayrıca norma qismində olmasa da, hüquqi yardımla bağlı müddəalar universal səviyyədə İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan davranış və cəza növlərinə qarşı 1984-cü il Konvensiyasında və Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1979-cu il Konvensiyasında nəzərdə tutulur.

Universal beynəlxalq hüquqi aktlarla yanaşı, hüquqi yardım almaq hüququ regional beynəlxalq hüquqi aktlarda da öz təsbitini tapmışdır. Belə aktlara Avropa regionu üzrə qəbul edilən İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında 1950-ci il Roma Konvensiyasını (m.6), 2000-ci il Əsas hüquqlar haqqında Avropa İttifaqı Xartiyasını (m.47), 1961-ci il Avropa Sosial Xartiyasını (m.19), digər regionlar üzrə isə İnsan hüquqları haqqında 1969-cu il Amerikaarası Konvensiyasını (m.8), İnsan və xalqların hüquqları haqqında 1981-ci il Afrika Xartiyasını (m.7) aid etmək olar.

Qeyd olunan sənədlərin təhlilindən belə bir nəticəyə gəlinir: birincisi, hüquqi ardım almaq hüququ müafiq olaraq beynəlxalq müqavilə əsaslarına malikdir. İkincisi, hüquqi yardım almaq hüququ beynəlxalq müqavilələrdə ayrıca norma qismində deyil, bir qayda olaraq müdafiə hüququnun və ya ədalətli məhkəmə araşdırmasının təminedici ünsürü kimi təsbit olunur. Üçüncüsü, bu sənədlərdə hüquqi yardım almaq hüququ bir qayda olaraq cinayət prosesinə aid olan institut kimi müəyyən olunur. Hərçənd İnsan Hüquqları Komitəsi (məsələn, *Karri Yamaykaya qarşı* işdə) Mülki və siyasi hüquqlar haqqında 1966-cı il Paktının 14-cü maddəsini, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi isə 1950-ci il Konvensiyasının 6-cı maddəsini, hüquqi



yardımla bağlı müddəaların yalnız cinayət prosesinə deyil, eyni zamanda mülki prosesə də şamil olunması kimi şərh edirlər. Dördüncüsü, beynəlxalq müqavilələrdə nəzərdə tutulan hüquqi yardım almaq hüququ bağlı müddəalar daha çox ümumi göstəriş xarakterlidir, bu hüquqla bağlı konkret müddəalar beynəlxalq səviyyədə bir qayda olaraq tövsiyə xarakterli aktlarda təsbit olunur. Belə aktların normaları isə hüquqi təbiəti baxımdan *"yumşaq hüquq" (soft law)* normalarıdır. Ancaq hüquqi yardım almaq hüququ ilə bağlı beynəlxalq standartların formalaşmasında mühüm əhəmiyyət daşıyırlar.

Tövsiyə xarakterli beynəlxalq sənədlərə BMT çərçivəsində qəbul olunan 1955-ci il tarixli Məhbuslarla davranış üzrə Minimal Standart Qaydaları, 1984-cü il tarixli Ölüm cəzasına məhkum olunmuş şəxslərin hüquqlarının müdafiəsinin təmin edilməsi Tədbirləri, 1990-cı il tarixli Hüquqi yardım almaq hüququnun realizəsi ilə bağlı məsələləri ətraflı şəkildə tənzimləyən hüquqşünasların rolu haqqında Əsas Prinsipləri və Vəkillərin rolu haqqında Əsas Müddəaları, Cinayət ədalət mühakiməsi sistemlərində, xüsusilə də Afrikada hüquqi yardıma çıxışın genişləndirilməsi məqsədilə Beynəlxalq Əməkdaşlıq adlı 2007-ci il Qətnaməsini, 2012-ci il tarixli Cinayət ədalət mühakiməsi sistemlərində hüquqi yardıma çıxışla bağlı rəhbər müddəalar və Prinsipləri aid etmək olar.

Bu sənədlərdə tövsiyə formasında olsa da, hüquqi yardımın göstərilməsini dövlətlərin öz öhdəlik və vəzifəsinin elementlərindən biri kimi qəbul etməli olması nəzərdə tutulur. Bunun üçün dövlətlər zəruri olduqda konkret qanunvericilik və normativ aktlar qəbul etməli və kompleks hüquqi yardım sisteminin yaradılmasını təmin etməlidirlər.

Bu hüququn beynəlxalq sənədlərdə müəyyən edilməsi dövlətləri məcbur edir ki, beynəlxalq öhdəliklərə riayət edilməsi nöqteyi-nəzərindən bu hüququn realizəsi üçün zəruri imkanlar yaratsın.

**İkinci paraqrafda** hüquqi yardım almaq hüququnun həyata keçirilməsində Avropa Məhkəməsi presedentlərinin əhəmiyyəti məsələləri təhlil olunur. Qeyd olunur ki, Avropa Məhkəməsinin presedent təcrübəsi hüquqi yardım almaq hüququnun realizəsində mühüm hüquqi əsas kimi əhəmiyyətə malikdir. Məlumdur ki, Avropa Məhkəməsi 1950-ci il Avropa Konvensiyasının normalarını təfsir etmək səlahiyyətinə malik olmaqla bu normaların düzgün təfsir və tətbiq edilməsini təmin edir. Ümumiyyətlə, Avropa Konvensiyasının normaları Avropa Məhkəməsinin təfsir etdiyi formada fəaliyyət göstərir. Avropa Məhkəməsinin Avropa Konvensiyasının təfsiri üzrə fəaliyyəti, həm iştirakçı-dövlətlər, həm də potensial ərizəçilər və onların Avropa Məhkəməsindəki nümayəndələri üçün mühüm praktiki

əhəmiyyət kəsb edir. Hüquq doktrinasında Avropa Məhkəməsi qərarlarının hüquqi təbiətinə və presedent xarakterinə böyük diqqət ayrılır.

Hüquqi yardım almaq hüququ ilə bağlı Avropa Məhkəməsinin presedent təcrübəsi əsas etibarilə bu hüququ təsbit edən Avropa Konvensiyasının 6-cı maddəsinə əsaslanır. Avropa Məhkəməsinin presedent təcrübəsinin təhlili göstərir ki, Avropa Konvensiyasının 6-cı maddəsinin ümumi məzmunlu müddəalarının realizəsi üzrə təcrübədə meydana çıxan bir çox məsələlər öz həllini məhz qeyd olunan presedentlərdə tapmışdır.

Avropa Məhkəməsi hesab edir ki, hüquqi yardım təkcə cinayət yox, mülki işləri də əhatə edir (*Stil və Morris Birləşmiş Krallığa qarşı*) və Konvensiyanın 6.3-cü maddəsi ədalətli məhkəmə araşdırması hüququ olan ümumi anlayışın tərkib hissəsidir və bu maddə mülki hüquq və vəzifələrlə bağlı mübahisələri də əhatə edir (*Dever Belçikaya qarşı*). Avropa Məhkəməsi hesab edir ki, mülki işlərdə hüquqi yardım ehtimal olunandır, nəinki ifadə olunan, yəni "mülahizə azadlığı" doktrinasına görə dövlətlər ədalət mühakiməsinə effektiv çıxışın təmin edilməsində geniş imkanlara malikdir. Mülki işlərdə hüquqi yarımın məhdudlaşdırılması 6.1-ci maddənin tələblərinin pozulması demək deyil.

Hüquqi yardım almaq hüququnun məhkəməyəqədər araşdırmalarda da tətbiq olunması ilə bağlı Avropa Məhkəməsi qeyd edir ki, məhkəməyəqədər mərhələdə nümayəndəliyə qadağa qoyulması ədalət mühakiməsinin ədalətli olmasına mənfi təsir göstərən əsaslı amildir (*İmbrioşa İsveçrəyə qarşı*). Ədalətli məhkəmə araşdırması hüququnun kifayət qədər praktiki və səmərəli olması üçün, Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi nəzərdə tutur ki, işin xüsusi hallarında bu hüququn məhdudlaşdırılmasını tələb etdiyi məcburedici səbəblər olmadıqda, bir qayda olaraq şübhəli şəxs polis tərəfindən ilk dindirilmə anından vəkillə təmsil olunmaq hüququna malikdir. Məcburedici səbəblərin müstəsna hallarda vəkillə təmin etməkdən imtina edilməsinə əsas verdiyi hallarda belə, əsaslandırmanın nədən ibarət olmasından asılı olmayaraq, təqsirləndirilən şəxsin 6-cı maddə ilə nəzərdə tutulan hüquqlarına əsassız müdaxilə edilə bilməz (*Hüseyn və digərləri Azərbaycana qarşı*).

Hüquqi yardımın zəruri olduğu hallarda 6.3-cü maddənin tələbinə görə vəkilin yardımı effektiv olmalıdır. Avropa Məhkəməsi hesab edir ki, müdafiəçinin formal təyinatı və qeyri-effektiv fəaliyyəti müvafiq maddənin tələblərinin pozulmasıdır (*Kuskani Birləşmiş krallığa qarşı*).

Hüquqi yardım almaq hüququnun ən geniş yayılmış forması ödənişsiz hüquqi yardımdır. Avropa Məhkəməsi hesab edir ki, ödənişsiz hüquqi yardım hərəkətli, real olmalıdır, çünki Konvensiya nəzəri və ya xəyali hüquqları təmin etmir, həmin hüquqların effektiv və praktik realizəsinə yönəlmişdir. Bütün bu



məsələlər isə hüquqi yardımla bilavasitə əlaqəlidir. Avropa Məhkəməsinin presedentlərində hüquqi yardımla bağlı verilən şərhlər və ümumilikdə Avropa Məhkəməsinin mövqeyi Avropa Şurası üzv-dövlətlərdə, o cümlədən AR-də bu hüququn realizəsində mühüm əhəmiyyət kəsb edir.

**Üçüncü paraqrafda** inkişaf etmiş dövlətlərin hüquq sistemində hüquqi yardım almaq hüququnun realizəsinin xüsusiyyətləri təhlil edilir. Burada ABŞ, Almaniya, Böyük Britaniya kimi təkmil hüquq sisteminə və hüquqi yardım almaq hüququnun səmərəli realizəsi mexanizmlərinə malik olan dövlətlərin hüquq sistemlərinin xüsusiyyətləri müqayisəli təhlil edilir.

Qeyd edilir ki, konstitusion səviyyədə hüquqi yardım almaq hüququ ilk dəfə olaraq ABŞ-ın 1787-ci il Konstitusiyasına 1791-ci ildə edilmiş 6-cı düzəlişdə təsbit olunmuşdur. Dünyanın əksər ölkələrində, o cümlədən ABŞ-da bu hüququn məzmunu məhkəmə prosesi gedişində (xüsusilə də cinayət mühakimə icraatında), eləcə də cinayət təqibi təhlükəsi zamanı vəkil xidmətindən istifadə etmək kimi başa düşülür. Bununla yanaşı, müxtəlif ştatların qanunvericiliyində təminatsız və aztəminatlı şəxslər üçün hüquqi yardım almaq hüququ ödənişsiz olaraq təqdim edilir. ABŞ ödənişsiz hüquqi yardım almaq hüququnu konstitusion səviyyədə təsbit edən ilk dövlət olmaqla, bu hüququn universal insan hüquqları kontekstində inkişaf etdirilməsində mühüm rol oynamışdır.

ABŞ hüquq sisteminin özünəməxsusluğu ondadır ki, hüquqi yardım fəaliyyəti heç bir zaman federal və ya ştatlar səviyyəsində qanunvericiliklə tənzimlənməmişdir. Burada hüquqi yardımın realizəsi bir qayda olaraq məhkəmə təcrübəsinə əsaslanır[3]. Hazırda ABŞ-da faktiki olaraq hüquqi yardımın üç əsas forması mövcuddur. *Birincisi,* hüquqi yardım mərkəzləri timsalında dövlət tərəfindən maliyyələşdirilən hüquqi yardım. Əgər cinayət prosesində ittiham olunan şəxs özünə vəkil tutmaq imkanına malik deyildirsə, bu halda məhkəmə həmin şəxs üçün vəkil təyin edir və onun xidmətini ödəyir. *İkincisi,* federal maliyyələşdirmə təqdim olunmadığı halda, vətəndaş cəmiyyəti təşkilatları hüquqi yardım almaq hüququnun təmin edilməsində mühüm rol oynayır. ABŞ-da belə təşkilatların əsas vəzifəsi qismində ictimai maraqların müdafiəsi çıxış edir. *Üçüncüsü,* könüllü hüquqi yardım fəaliyyətidir (*pro bono*).

ABŞ-dan fərqli olaraq Almaniyanın əsas qanununda hüquqi yardımla bağlı birbaşa norma təsbit olunmayıb. Lakin Konstitusiyanın 74.1-ci maddəsinə əsasən məhkəmə quruluşu, vəkillik, notariat və hüquqi konsultasiya məsələləri Federasiyanın qanunverici səlahiyyətlərinə aiddir.

[3] Houseman W.Alan. Civil Legal Aid in the United States an update for 2013. CLASP/ p. 2-4.

Vəkillik və hüquqi konsultasiya Federasiya tərəfindən sırf peşəkar fəaliyyət növü kimi qəbul edilir və peşəkar fəaliyyətlə bağlı konstitusiyanın digər maddələri ilə nizamlanır.

Almaniya qanunvericiliyinə uyğun olaraq pulsuz hüquqi yardımın göstərilməsi üçün iki mühüm şərt tələb olunur. Birinci şərt, işdə vəkilin iştirak etməsinin məcburi hal olmasıdır. Belə ki, Almaniya mülki prosessual və cinayət prosessual qanunvericiliyi işdə vəkilin iştirakının məcburi olduğu halların siyahısını müəyyən etmişdir. İkinci şərt isə şəxsin həqiqətən də belə hüquqi yardımın qarşılığını ödəmək imkanına malik olmaması göstərilir. Almaniyada ödənişsiz hüquqi yardımın göstərilməsinin üç növü fərqləndirilir: 1) məhkəmədənkənar hüquqi yardım; 2) mülki prosesdə göstərilən hüquqi yardım və 3) cinayət prosesində göstərilən hüquqi yardım. Bu növ hüquqi yardımın göstərilməsinin zəruriliyini konkret işlə bağlı məhkəmə müəyyən edir.

Vəkilliyi "ədalət mühakiməsinin müstəqil orqanı" qismində müəyyən edən "Vəkillik haqqında" Federal Qanuna əsasən, vəkillər rəsmi olaraq hüquq məsləhətçisi kimi fəaliyyət göstərmək hüququna malik deyil. Məhz bu səbəbdən vəkil hüquq məsləhətçisinin funksiyalarını yalnız xüsusi müqavilə əsasında yerinə yetirə bilər.

Böyük Britaniyada yazılı konstitusiya olmadığından ayrıca Parlament aktları, məhkəmə qərarları, statutlar qüvvədədir, bir sözlə ümumi hüquq sistemi fəaliyyət göstərir. Ölkədə qeyd edilən aktların heç birində hüquqi yardım almaq hüququ ilə bağlı birbaşa norma təsbit edilməmişdir. Bununla belə, ayrı-ayrı qanunvericilik aktlarında hüquqi yardımla bağlı məsələlərə yer ayrılmışdır.

Almaniyada olduğu kimi Böyük Britaniyada da ödənişsiz hüquqi yardımın üç sistemi fəaliyyət göstərir: 1) pulsuz məsləhət və yardım; 2) mülki işlər üzrə nümayəndəlik; 3) cinayət prosesində müdafiə. 1987-ci ilə kimi pulsuz hüquqi yardım sistemi Hüquqi Cəmiyyət (İxtisaslı vəkillər cəmiyyəti), daha sonra hüquqi yardım üzrə Şura tərəfindən idarə olunurdu, 2000-ci ildən etibarən bu işlə hökumətdən müstəqil fəaliyyət göstərən hüquqi yardım üzrə Komissiya məşğul olur.

ABŞ, Böyük Britaniya və Almaniya kimi dövlətlərin hüquq sisteminin kifayət qədər uzunmüddətli bir inkişaf prosesi keçməsi burada hüquqi yardım almaq hüququnun həm cinayət, həm də mülki işlərdə müəyyən məsələlər üzrə daha konkret formada işlənib hazırlanmasına gətirib çıxarmışdır. Bu ölkələrdə hüquqi yardım institutunun inkişafı digər sahələrin, xüsusilə də məhkəmə prosesinin, vəkillik fəaliyyətinin və bütövlükdə insan



hüquqlarının müdafiəsinin effektiv şəkildə inkişafına və qanunvericilik bazasının təkmilləşməsinə şərait yaratmışdır.

Bu baxımdan ABŞ-da mövcud olan qanunvericilik praktikasının öyrənilməsi digər dövlətlərin, o cümlədən AR-in müvafiq sahələrdə qanunvericiliyinin təkmilləşdirilməsi baxımından səmərəli hesab edilə bilər.

Üçüncü fəsil **"Azərbaycan Respublikası qanunvericiliyində hüquqi yardım almaq hüququnun formalaşması, realizəsi və inkişaf tendensiyası"** adlanır və üç paraqrafı özündə birləşdirir.

**Birinci paraqrafda** hüquqi yardım almaq hüququ sferasında beynəlxalq hüquq normalarının AR-in milli qanunvericiliyinə təsir imkanları və qanunvericiliyin inkişafı məsələləri araşdırılır.

Hüquqi yardım almaq hüququ sferasında beynəlxalq hüquq normalarının AR qanunvericiliyinə təsiri problemini tədqiq edərkən beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı təsir sferasına diqqət yetirilməsini məqsədəuyğun olması qeyd olunur. Müasir dövrdə insan hüquqlarının, o cümlədən hüquqi yardım almaq hüququnun müdafiəsinin beynəlxalq hüququn fəaliyyət sferasına daxil olması, müvafiq olaraq beynəlxalq hüquq normaları ilə dövlətdaxili qanunvericilyin qarşılıqlı əlaqəsini şərtləndirir.

Qeyd olunan qarşılıqlı əlaqə dövlətdaxili qanunvericiliyin beynəlxalq hüquq normalarına uyğunlaşdırılması istiqamətində baş verir. Bu baxımdan beynəlxalq hüquq normalarının AR qanunvericiliyinin təkmilləşdirilməsinə təsir etməsi və hüquqi yardım almaq hüququnun realizəsində beynəlxalq-hüquqi standartların nəzərə alınması zəruridir.

AR-də insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində 2011-ci il tarixli Milli Fəaliyyət Proqramında qeyd edilir ki, AR qanun layihələrinin hazırlanması zamanı AR Konstitusiyasında və AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş insan hüquq və azadlıqlarının əsas meyar kimi rəhbər tutulması zəruridir (b,1.1). Əslində bu tələb AR qanunvericiliyində Konstitusiya səviyyəsində müəyyən edilir. Belə ki, AR Konstitusiyasının 12-ci maddəsinə müvafiq olaraq müəyyən edilir ki, Konstitusiyada təsbit edilmiş insan hüquq və azadlıqları AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilməlidir.

Əslində AR-in daxili qanunvericiliyini beynəlxalq hüquq, xüsusilə müqavilə normalarına uyğunlaşdırması, onun həmin müqavilə üzrə öhdəsinə götürdüyü öhdəliyi yerinə yetirməsini ehtiva edir və nəticə etibarı *pacta sunt servanda* prinsipinin məzmunundan irəli gəlir. Beynəlxalq hüquq normaları ilə AR qanunvericiliyini müqayisə etdikdə belə bir nəticəyə gəlmək olar ki, AR insan hüquqları sahəsində, o cümlədən hüquqi yardım almaq hüququ ilə bağlı öz beynəlxalq-hüquqi öhdəliklərini dövlətdaxili

norma yaradıcılığı mərhələsində lazımi qaydada yerinə yetirir və hüquqi yardım almaq hüququ ilə bağlı beynəlxalq hüquq normalarının AR-in hüquq sistemində maddi-hüquqi implementasiyası qənaətbəxşdir.

Hərçənd beynəlxalq hüquq normalarının milli-hüquqi implementasiyasının forma və üsullarının seçilməsi dövlətin səlahiyyətindədir. AR qanunvericiliyini analiz edərək bu prosesin xüsusiyyətləri barədə müəyyən nəticələri qeyd etmək olar. Birincisi, AR qanunvericiliyi hüquqi yardım almaq hüququ ilə bağlı qeyri-müqavilə normalarının, xüsusilə "*yumşaq hüquq*" normalarının qanunvericiliyə təsir mexanizmlərini müəyyən etmir. Qeyd olunur ki, hüquqi yardım almaq sferasında kifayət qədər mövcud olan belə beynəlxalq normaların AR qanunvericiliyinə təsiri, dövlət öz üzərinə müvafiq öhdəliklər götürmədən baş verir. İkincisi, AR qanunvericiliyində, başda Konstitusiya olmaqla (m.148) beynəlxalq müqavilə normaları milli qanunvericilik sisteminin tərkib hissəsi kimi qəbul edilir (Cinayət-Prosessual Məcəllə, m.2; Mülki-Prosessual Məcəllə, m.1; Vəkillər və vəkillik fəaliyyəti haqqında Qanun, m.2). Yeri gəlmişkən, Vəkillər və vəkillik fəaliyyəti haqqında Qanunun ilkin variantında vəkillik fəaliyyəti haqqında qanunvericiliyə AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələr daxil edilməmişdi. Bu müddəanın qeyd olunan Qanuna daxil edilməsi özü də qanunvericiliyin təkmilləşdirilməsi nümunəsidir.

Hüquqi yardım almaq hüququna dair AR-in qanunvericilik təcrübəsi göstərir ki, qanunvericilik müddəaları demək olar ki, mövcud beynəlxalq hüquq normaları ilə eynilik təşkil edir. Bu kontekstdə AR qanunvericiliyinin təqdir edilməli xüsusiyyəti ondadır ki, hüquqi yardım almaq hüququ müstəqil konstitusiya norması kimi müəyyən olunmuşdur (Konstitusiya, m.61). Konstitusiya müddəası, hüquqi yardım almaq hüququndan istifadə olunduğu sferaların xüsusiyyətlərinə uyğun olaraq müvafiq normativ aktlarda (Cinayət-Prosessual Məcəllə, m.19, 92; Mülki-Prosessual Məcəllə, m.66-75; İnzibati Xətalar Məcəlləsi, m.371-376) təsbit olunur.

Bununla yanaşı, hesab edilir ki, bütün normativ aktlarda vahid terminologiyadan istifadə olunması məqsədəuyğundur. Belə ki, müxtəlif aktlarda fərqli anlayışlardan-"yüksək keyfiyyətli hüquqi yardım" (Konstitusiya, m.61, Vəkillər və vəkillik fəaliyyəti haqqında Qanun, m.3), "ixtisaslı hüquqi yardım" (Mülki-Prosessual Məcəllə, m.68), "keyfiyyətli hüquqi yardım" (Cinayət-Prosessual Məcəllə, m.19) və s. əks halda müxtəlif təfsir və ya interpretasiyalara şərait yaranır.

**İkinci paraqrafda** AR-in hüquq sistemində hüquqi yardım almaq hüququnun realizəsinin prosessual cəhətləri tədqiq edilir. Qeyd edilir ki, hüquqi yardım almaq hüququ ilə bağlı beynəlxalq hüquq normalarının milli-hüquqi



implementasiyasında həll edilməli olan əsas prosessual məsələ, mövcud olan beynəlxalq hüquq normaları və dövlətdaxili qanunvericilikdən hansının tətbiq edilməsi və necə tətbiq edilməsidir. Bununla bağlı da AR qanunvericiliyi özünəməxsus xüsusiyyətlərə malikdir. *Birincisi,* qanunvericilik yalnız AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələri qanunvericilik sisteminə daxil etdiyi üçün, məntiqi olaraq həmin müqavilələrin normaları ilə qanunvericiliyin tətbiqlə bağlı nisbət məsələsini həll edir. *İkincisi,* AR qanunvericiliyi tətbiqlə bağlı nisbət məsələsində üstünlüyü beynəlxalq müqavilə normalarına verir. Amma qanunvericilik qaydasında bu yalnız ziddiyyətin mövcud olduğu hallar üçün nəzərdə tutulur. Konstitusiyaya (m.151), Mülki-Prosessual Məcəlləyə (m.68) müvafiq olaraq, AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə qanunvericilikdən fərqli qayda nəzərdə tutulduğu halda, beynəlxalq müqavilənin qaydaları tətbiq edilir. Hərçənd bununla bağlı normativ aktların məzmununda müəyyən fərqlər mövcuddur: 1) bəzən bütövlükdə beynəlxalq müqavilələr nəzərdə tutulur (Cinayət-Prosessual Məcəllə, m.2.3), bəzi hallarda isə bu müddəa yalnız dövlətlərarası beynəlxalq müqavilələrə şamil edilir (Konstitusiya, m.151); 2) Konstitusiyanın 151-ci maddəsinə əsasən, Konstitusiya və referendumla qəbul edilən qanunlarla beynəlxalq müqavilələrin nisbətində isə üstünlük birinciyə verilir. Konstitusiyanın 12-ci maddəsində isə Konstitusiyada təsbit olunan insan hüquqlarının AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq tətbiq edilməsi nəzərdə tutulur. İlk baxışda müəyyən ziddiyyətin olması barədə təsəvvür yaranır. Hüquqi yardım almaq hüququnun insan hüquqları sisteminə daxil olmasını nəzərə alsaq, o halda Konstitusiyanın 12-ci maddəsinin müddəalarını rəhbər tutaraq belə bir nəticəyə gəlmək olar ki, insan hüquqları, o cümlədən hüquqi yardım almaq hüququ üzrə normaları təsbit edən beynəlxalq müqavilələr Konstitusiyaya nisbətdə üstünlük təşkil edir.

Hüquqi yardım almaq hüququnun realizəsi üzrə mexanizmləri təhlil edən müəllif hesab edir ki, AR-də bu sahədə əsas institusional mexanizmlər məhkəmə, vəkillik, ombudsman və notariatdır.

Hüquqi yardım almaq hüququ ilə bağlı normaların tətbiqi ilə bağlı məhkəmə təcrübəsi geniş təhlil edilir. Qeyd edilir ki, beynəlxalq hüquq normalarının implementasiyasında həmin normaların tətbiqi mühüm əhəmiyyətə malikdir. Məhkəmə təcrübəsinə əsasən, AR məhkəmələrində hüquqi yardım almaq hüququ üzrə beynəlxalq hüquq normalarının tətbiqi ilə bağlı təcrübi nöqsanlar mövcuddur. Bu nöqsanların aradan qaldırılmasında AR Ali Məhkəməsi və Konstitusiya Məhkəməsinin qərarları, o cümlədən Avropa Məhkəməsinin presedent təcrübəsi mühüm rol oynayır.

AR Konstitusiya Məhkəməsi bir çox qərarlarında, məsələn, AR Cinayət-Prosessual Məcəlləsinin 92.12-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair Qərarında hüquqi yardım məsələsinə aydınlıq gətirmiş və bu prosesdə müvafiq sferada mövcud olan beynəlxalq hüquqi aktlara istinad etmişdir.

AR Ali Məhkəməsi Plenumunun Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyası müddəalarının və Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında 30 mart 2006-cı il tarixli Qərarında qeyd edilir ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə bağlı məhkəmələr milli qanunvericiliklə yanaşı, Avropa Konvensiyası müddəalarını da rəhbər tutmalı və bu zaman Avropa Məhkəməsinin təcrübəsinə istinad etməlidirlər. Qərarda qeyd edilir ki, məhkəmələr nəzərə almalıdırlar ki, müdafiəçiyə müdafiə etdiyi şəxslə sərbəst, təklikdə görüşüb danışmaq imkanı yaradılmasa, o öz vəzifəsini layiqincə yerinə yetirə bilməz. Təqsirləndirilən şəxsin müdafiəçi ilə sərbəst şəkildə, təklikdə, qeyri-məhdud miqdarda və müddətdə görüşmək hüququ heç bir istisnaya yol verilmədən təmin olunmalıdır.

Bütün dövlətlərdə olduğu kimi AR-də də hüquqi yardım almaq hüququnun realizəsi əsasən vəkillik fəaliyyəti ilə bağlıdır. Vəkillik yeganə institutdur ki, ədalət mühakiməsi həyata keçirilərkən ona konstitusiya səviyyəsində, dövlətlə eyni həddə bərabərlik və dövlətdən müstəqillik prinsipi şamil olunur. Bu da onun insan hüquqlarının müdafiəsində nə qədər mühüm rola malik olmasını bir daha təsdiq edir. Bundan başqa, vəkillik fəaliyyətində özünüidarəetmə prinsipi də insan hüquqlarının müdafiəsi sistemində vəkillik institutunun mühüm rolunu təmin edir.

Hüquqi yardım almaq hüququnun realizəsi sahəsində digər təşkilati mexanizm Ombudsmandır. Onun illik məruzəsində insan hüquqlarını pozan, Müvəkkilin tələbləri ilə hesablaşmayan dövlət və yerli özünüidarə orqanlarının, vəzifəli şəxslərin adları çəkilir və bununla əlaqədar görülmüş tədbirlər barədə məlumat verilir. Müvəkkilin illik məruzəsində insan hüquqlarının təmin edilməsi ilə əlaqədar ümumi fikir, rəy və tövsiyələr öz əksini tapmalıdır. İllik məruzə AR Nazirlər Kabinetinə, AR Konstitusiya Məhkəməsinə, AR Ali Məhkəməsinə və AR Baş prokuroruna göndərilir.

Notariat haqqında Qanuna əsasən, hüquqi yardım almaq hüququnun realizəsi üzrə notariatın fəaliyyəti, fiziki və hüquqi şəxslərə, aparılan notariat hərəkətləri ilə bağlı onların hüquq və vəzifələrini izah etmək, bu hüquqların həyata keçirilməsi və qanuni mənafelərinin qorunması üçün köməklik göstərməkdə ifadə olunur (m.9).



**Üçüncü paraqrafda** AR-də ödənişsiz hüquqi yardım almağın nəzəri və praktiki problemləri tədqiq edilir. Qeyd edilir ki, ödənişsiz yardım hüquqi yardım almaq hüququnun tərkib hissəsini təşkil edir və əsasən maddi cəhətdən imkansız əhali təbəqəsinin dövlətlə əlaqələrinin real imkanları kimi nəzərdən keçirilir. Ödənişsiz hüquqi yardım hüquqi köməyə ehtiyacı olan şəxsə münasibətdə ödənişsizdir, həmin yardıma görə haqqın ödənilməsi isə dövlət tərəfindən həyata keçirilir.

Ödənişsiz hüquqi yardımın göstərilməsi ideyasının əsasını insanların məhkəmələrə çıxış prinsipi təşkil edir ki, bu da hal-hazırda instənilən hüquqi dövlətdə hakimiyyətlərin bölgüsü və ayrılmaz insan hüquqlarının təmin edilməsinin əsas şərtlərindən hesab edilir. AR-də ödənişsiz hüquqi yardım almaq hüququ ölkənin əsas qanunu ilə yanaşı, digər qanunvericilik aktlarında da ayrıca norma şəklində öz təsbitini tapmışdır. Qanunla nəzərdə tutulmuş hallarda ödənişsiz hüquqi yardım almaq hüququ hər şeydən əvvəl ədalət mühakiməsinin maraqları ilə əlaqələndirilməlidir ki, bu da əsasən tərəflərin imkanlarının bərabərliyi prinsipinin təmin edilməsinə aiddir.

Qeyd edilir ki, AR-də ödənişsiz hüquqi yardımın göstərilməsində bir sıra problemlər var ki, onlardan biri vəkillərə verilən maddi vəsaitin azlığı ilə bağlıdır. Növbəti problem məhkəmədən kənar və ya məhkəməyəqədər pulsuz hüquqi yardımın göstərilməsi ilə bağlıdır. Aztəminatlı ailələr üçün məhkəmədən kənar və ya məhkəməyəqədər ödənişsiz keyfiyyətli hüquqi yardımın göstərilməsi üzrə konkret mexanizmin yaradılması zəruridir. Düzdür, hazırda ölkəmizdə hüquqi məsləhətlər və konsultasiya üzrə hüquq klinikaları tərəfindən müəyyən fəaliyyət həyata keçirilir. Bu istiqamətdə Bakı Dövlət Universiteti Hüquq fakültəsi nəzdində yaradılan "Hüquq klinikası" bu növ hüquqi yardım göstərilməsində kifayət qədər təcrübəyə malikdir.

Ödənişsiz hüquqi yardımla bağlı mövcud problemlərdən biri də bu sferada konkret qanunvericilik aktının və ayrıca institusional təsisatın olmaması ilə bağlıdır. Qeyd edilir ki, aztəminatlı ailələr üçün mülki məhkəmə prosesində ödənişsiz hüquqi yardımın təmin edilməsi mexanizminin yaradılması məqsədilə "Ödənişsiz hüquqi yardım haqqında" Qanunun qəbul edilməsi məqsədəuyğundur.

**Dissertasiya işinin nəticə hissəsində** tədqiqatla əlaqədar əldə edilmiş mühüm təklif və nəticələr qeyd edilmiş, beynəlxalq və dövlətdaxili hüquq üçün onların nəzəri-praktik əhəmiyyəti ifadə edilmişdir.

**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap edilmişdir:**

1. Hüquqi yardım almaq hüququnun təmin edilməsi sahəsində dövlətlərin məsuliyyəti // Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi-analitik və praktiki jurnal), Bakı, 2014, № 3 (39), s. 184-190.

2. ABŞ-da hüquqi yardım almaq hüququnun əsas xüsusiyyətləri // Bakı Universiteti Xəbərləri, Sosial-siyasi elmlər seriyası, Bakı, 2014, № 4, s. 102-106.

3. Hüquqi yardım almaq hüququnun insan hüquqları sistemində yeri: beynəlxalq təcrübə və Azərbaycan Respublikasının qanunvericiliyi // Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi-analitik və praktiki jurnal), Bakı, 2014 № 4 (40), s. 176-183.

4. Cinayət prosesində hüquqi yardım almaq hüququ Avropa İttifaqında cinayət ədalət mühakiməsinin fundamental əsası kimi // Nəqliyyat hüququ (elmi-nəzəri, təcrübi jurnal), Bakı, 2015, № 1, s. 223-231.

5. Hüquqi yardım almaq hüququnun hüquqi təbiəti, növləri və subyektləri // Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi-analitik və praktiki jurnal), Bakı, 2015, № 1 (41), s. 57-62.

6. Ödənişsiz hüquqi yardım almaq hüququnun təmin olunmasına dair beynəlxalq-hüquqi mexanizmlər // Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri, Bakı, Humanitar elmlər seriyası, 2015, № 42, s. 173-180.

7. Юридическая помощь как основная гарантия на справедливое судебное разбирательства // Наука I Правоохорона. Украïне, Киïв, 2015, № 2, стр. 265-217.

8. Ödənişsiz hüquqi yardım almaq hüququnun müasir modelləri // Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi-analitik və praktiki jurnal), Bakı, 2015 № 3 (43), s. 20-24.

9. Hüquqi yardım almaq hüququnun insan hüquqlarının müdafiəsi sistemində yeri: əsas xüsusiyyətlər və mühüm nəticələr // Nəqliyyat hüququ (elmi-nəzəri, təcrübi jurnal), Bakı, 2015, № 4, s. 166-171.

10. Hüquqi yardım almaq hüququnun məzmununa dair / Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Heydər Əliyevin Azərbaycan Respublikasının hüquq elminin və təhsilinin inkişafında rolu" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, I cild, 2015, s. 66-68.

11. Сравнительно-правовой анализ права на юридическую помощ и защиты прав человека: теоретические и практические проблемы // Право и политология, Кишинев, 2016, № 33, стр. 9-12.

12. Azərbaycan Respublikasında hüquqi yardım almaq hüququnun realizəsi mexanizmləri (normativ-hüquqi və təşkilati mexanizmlər) // Odlar Yurdu Universitetinin elmi və pedaqoji xəbərləri, Bakı, Humanitar elmlər seriyası, 2015, №43, s. 62-68.



# РЕЗЮМЕ

Диссертационная работа Халиловой Шаргии Адильхан гызы на тему «Право на юридическую помощь: международные стандарты и законодательство Азербайджанской Республики», представленная на получение ученой степени доктора философии по праву по специальности 5603.01 - «Международное право; права человека», является самостоятельной, творческой и завершенной исследовательской работой, отражающей совершенно новые научные положения, имеет важное значение с точки зрения определения сути и особенностей реализации права на юридическую помощь, в том числе для защиты прав человека, а также при анализе вопросов взаимосвязи норм международного и внутригосударственного права в этой сфере. Диссертационная работа основана на широкой международной договорной и судебной практике, на сравнительном анализе законодательств различных государств, включая законодательство Азербайджанской Республики, и существующего разнообразия мнений в юридической литературе.

Диссертационная работа состоит из введения, 3-х глав, Заключения и списка использованной литературы.

Во Введении диссертационной работы обоснована актуальность темы исследования, определены цели и задачи исследования, его методологические и теоретические основы, обоснована научная новизна исследования, приведены сведения о новых научных положениях, представляемых к защите и их практическом значении, об апробации результатов исследования и структуре диссертации.

Первая глава исследования называется «Формирование и содержание права на юридическую помощь, его место в системе прав человека» и состоит из трех параграфов. В этой главе анализируются история формирования и развития права на юридическую помощь, его суть и правовая природа, в том числе вопросы о месте права на юридическую помощь в системе прав человека.

Вторая глава диссертации называется «Основы реализации права на юридическую помощь в международном и внутригосударственном праве». Здесь широко анализируются существующие международные нормы в сфере права на юридическую помощь, роль Европейского Суда в реализации этого права и особенности права на юридическую помощь в практике развитых государств.

Третья глава диссертационного исследования называется «Тенденции формирования, реализации и развития права на юридическую помощь в законодательстве Азербайджанской Республики» и состоит из трех параграфов. В этой главе анализируются вопросы влияния норм международного права в сфере права на юридическую помощь на национальное законодательство, механизмы реализации этого права в Азербайджанской Республике, а также теоретические и практические проблемы бесплатной юридической помощи.

В заключительной части диссертационной работы отмечены важные предложения и выводы, полученные в результате исследования, показана их теоретическая и практическая значимость для международного и внутри-государственного права.

## SUMMARY

Shargiyya Adilkhan gizi Khalilova's presented dissertation work for attaining the degree of Doctor of philosophy in Law in the specialisation "International law; human rights" called "Right to legal assistance: international standards and legislation of the Republic of Azerbaijan" is independent, creative and completed research theme. Reflecting new scientific dispositions this research is of great importance in determination of the substance and properties of implementation of the right to legal assistance, as well as, in the analysis of the protection of the human rights and in issues of international and national law's interaction. The dissertation work is based on the international contract and judicial practice, as well as, on the comparative analysis of the diversity of opinions existing in the legislation and legal literature of different countries including the legislation of the Republic of Azerbaijan.

The Dissertation work contains introduction, three chapters, conclusion and bibliography. Topicality is substantiated in the introduction ,as well as, aims and goals of the research, its metodological and theoritical bases are established. In addition, the scientific innovation and submitted new scientific dispotions and practical importance of research are explained. The information is given on approbation of the results of the research and structure.

The first chapter of the research is called "the formation of the right to legal assistance, its content and placement in the system of human rights" and contains three paragraphs. The formation and development history of the right to legal assistance, its content and judicial nature, as well as its placement in the system of human rights are explained in this chapter.

The second chapter of the research is called "Principles of the realization of the right to legal assistance in national and international law" and is comprised of three paragraphs. This chapter is focused on the international dispositions existing in the sphere of the right to legal assistance, on the role of the European Court in the realization of this right and on the specifications of the right to legal assistance in the practice of developed countries.

Third chapter is called "Formation, realization and tendency of development of the right to legal assistance in the legislation of the Republic of Azerbaijan" and contains three paragraphs. The impact of the international law dispositions to the national legislation, the realization mechanisms of this right in the Republic of Azerbaijan, as well as theoretical and practical problems of the free legal assistance were analyzed in this chapter.

The conclusion part of the research is comprised of the suggestions and results that are achieved in the end of the dissertation work and especially their theoretical-practical importance for the local and international legislative systems.



**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ШАРГИЯ АДИЛЬХАН кызы ХАЛИЛОВА**

# ПРАВО НА ЮРИДИЧЕСКУЮ ПОМОЩЬ: МЕЖДУНАРОДНЫЕ СТАНДАРТЫ И ЗАКОНОДАТЕЛЬСТВО АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Специальность: 5603.01 - «Международное право; права человека»**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по праву**

**БАКУ – 2016**